**YENİ** DÖVRƏ AZƏRBAYCANLA!






YENİ AZƏRBAYCAN PARTİYASININ

# SEÇKİ PLATFORMASI









1 SENTYABR

**2024**

AZƏRBAYCAN RESPUBLİKASININ
MİLLİ MƏCLİSİNƏ SEÇKİLƏR

# HÖRMƏTLİ SEÇİCİ!

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcəkdir. Ölkəmizin siyasi sistemində aparıcı rola malik Yeni Azərbaycan Partiyası bu seçkilərə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz möhtəşəm ümumxalq Zəfərindən sonra yaranmış reallıqlardan irəli gələn hədəflərlə - Yeni dövrə Yeni Azərbaycanla qatılır.

Azərbaycan müasir dövlətçilik tarixinin mühüm nailiyyətlərlə zəngin olan şərəfli bir dönəminə uğurla yekun vuraraq yeni dövrə qədəm qoymuşdur.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində qazandığımız möhtəşəm qələbələr Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasını və üçrəngli bayrağımızın işğaldan azad edilmiş bütün ərazilərimizdə ucaldılmasını təmin etmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ölkəmizin sosial-iqtisadi tərəqqisinə, hərbi gücünün və müdafiə qabiliyyətinin yüksəlməsinə, beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə, milli və regional təhlükəsizliyin təmin olunmasına hədəflənmiş müstəqil və uzaqgörən siyasəti sayəsində istər ölkəmizdə, istərsə də bütövlükdə regionumuzda yeni reallıqlar yaranmış, qarşımızda yeni perspektivlər açılmışdır.

Hazırda qarşımızda dayanan başlıca məqsəd növbəti milli hədəflərimizin gerçəkləşdirilməsidir. Siyasi sabitliyin və milli birliyin qorunması, davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi, əhalinin rifahının daha da yaxşılaşdırılması, tarixi Zəfərimizin beynəlxalq müstəvidə tam və qəti şəkildə təsbit olunması, dövlətimizin hərbi qüdrətinin daha da artırılması, Böyük Qayıdış Proqramının ardıcıl olaraq və zamanında həyata keçirilməsi, regionda dayanıqlı sülhə, etibarlı təhlükəsizliyə, çoxşaxəli əməkdaşlığa nail olunması və digər hədəflər xüsusi əhəmiyyət kəsb edir.

2024-cü ilin fevral ayında keçirilmiş prezident seçkisində xalqın mütləq əksəriyyəti Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi dəstəkləməklə həyata keçirilən siyasətə, Heydər Əliyev yoluna dərin inamını bir daha nümayiş etdirmişdir.

Yeni Azərbaycan Partiyası bu zamana qədər Azərbaycanın yüksəlişində – ictimai-siyasi sabitliyin qorunması, əhalinin rifahının yaxşılaşdırılması, milli həmrəyliyin gücləndirilməsi, sosial-iqtisadi islahatların uğurla reallaşdırılması, ətraf mühitin mühafizəsi və “yaşıl dünya” naminə ümumbəşəri əhəmiyyətli təşəbbüslərin reallaşdırılması, dövlətin müdafiə qabiliyyətinin artırılması, beynəlxalq mövqeyinin möhkəmləndirilməsi və bir çox mühüm nailiyyətlərin əldə edilməsində müstəsna rol oynamış, bundan sonra da ölkəmizin tərəqqisi naminə reallaşdırılacaq strateji kursa - Heydər Əliyev yolunun davamçısı olan İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasətinin həyata keçirilməsinə öz töhfələrini verəcəkdir.

İnanırıq ki, Azərbaycan Respublikası Milli Məclisinə sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilər xalqın Yeni Azərbaycan Partiyasına inamının növbəti ifadəsi, Heydər Əliyev yoluna sədaqətinin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Zəfər yürüşünün davamına birmənalı dəstəyinin təsdiqi olacaqdır.

Hər birinizi seçkilərdə fəal iştirak etməyə və Azərbaycanın gələcəyinə - dünənin, bu günün və sabahın partiyası olan Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə, birlikdə növbəti zəfərlərə doğru inamla addımlamağa çağırırıq.

## İCTİMAİ-SİYASİ SABİTLİYİN VƏ MİLLİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI

1993-cü ildə Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtması müasir dövlətçilik tariximizin dönüş nöqtəsi oldu. Müdrik dövlət xadiminin milli maraqlara, dövrün çağırışları və reallıqlarına uyğun siyasəti nəticəsində mərkəzdənqaçma meyillərinin - dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, ictimai-siyasi sabitlik və vətəndaş həmrəyliyi təmin olundu. Siyasi-hüquqi islahatların reallaşdırılması, müstəqillik dövründə ilk parlament seçkilərinin keçirilməsi və ilk Konstitusiyanın ümumxalq səsverməsi - referendum əsasında qəbul edilməsi, kütləvi informasiya vasitələri üzərində senzuranın aradan qaldırılması və digər addımlar plüralizmə əsaslanan siyasi sistemin bərqərar olmasına və Azərbaycanın demokratik inkişaf yolunda inamla irəliləməsinə təkan verdi.

Bu gün Azərbaycan dünyada sabitlik və təhlükəsizlik adası kimi tanınır. Milli təhlükəsizlik siyasətinin bütün istiqamətləri üzrə - xarici siyasət, hərbi, iqtisadi, sosial, ekoloji, informasiya, ictimai, milli, dini və digər sferalarda vəzifələrin tam yerinə yetirilməsi Azərbaycanın mümkün təhdidlərdən etibarlı müdafiəsini təmin edir.

Ölkədə mövcud olan həmrəylik, xalq-iqtidar birliyi milli təhlükəsizliyin əsaslarını daha da möhkəmləndirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalqın bizim siyasətə göstərdiyi dəstək bizə güc verir və eyni zamanda, imkan verir ki, islahatları dərinləşdirək və Azərbaycanın dayanıqlı inkişafını təmin edək” fikri bu reallığı birmənalı şəkildə təsdiqləyir. Sosioloji tədqiqat mərkəzlərinin keçirdiyi sorğular da ölkəmizdə vətəndaşların Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətə mütləq inam və etimad bəslədiklərini, xalq-iqtidar birliyinin sarsılmaz təmələrə söykəndiyini göstərir.

Bu gün ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələri sülh, əmin-amanlıq şəraitində və tolerant mühitdə yaşayırlar. Respublikamızda multikulturalizmin həm dövlət siyasəti olaraq müəyyənləşdirilməsi, həm də cəmiyyətin həyat tərzi olması Azərbaycanın sabitlik adası kimi inkişaf yolunda inamlı irəliləyişini təmin edir.

Dünyanın müxtəlif regionlarında xaos və qarşıdurma hallarının artdığı, qlobal kataklizmlərin şiddətləndiyi hazırkı dövrdə ictimai-siyasi sabitlik və milli təhlükəsizliyin təmini müstəsna əhəmiyyətə malik olmaqla dövlət siyasətinin əsas strateji prioritetlərindəndir.

### Sabitlik və milli təhlükəsizliklə əlaqədar əsas hədəflər:

*- fərdin, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmini;*

*- Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və konstitusiya quruluşunun hər cür təhdidlərdən qorunması;*

*- Azərbaycanın daxili işlərinə müdaxilə cəhdləri və ideoloji təxribatlarla fəal mübarizə aparılması;*

*- milli həmrəyliyin gücləndirilməsi, o cümlədən müxtəlif xalqların ölkə daxilində tolerantlıq mühitində, qarşılıqlı anlaşma şəraitində dinc birgəyaşayışının diqqətdə saxlanılması və multikultural dəyərlərin müntəzəm təşviqi;*

*- informasiya təhlükəsizliyi sahəsində milli maraqların müdafiəsinə hədəflənən siyasətin davam etdirilməsi.*

# XALQIMIZIN MƏDƏNİ İRSİNİN VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİN QORUNMASI

Azərbaycan xalqı zəngin dövlətçilik tarixinə, bəşəri sərvət kimi dəyərləndirilən milli-mənəvi dəyərlərə və unikal mədəni irsə malikdir.

“Hər xalqın öz adət-ənənəsi, milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi, dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik”, - deyən Ulu Öndər Heydər Əliyev milli-mənəvi dəyərlərin qorunmasına hər zaman böyük önəm vermiş və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirmişdir.

“Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq”, - deyən Ümummilli Liderin uzaqgörən siyasəti nəticəsində ölkəmizdə yaşayan bütün xalqların nümayəndələrinin bərabərhüquqlu vətəndaş kimi cəmiyyətə inteqrasiyası, etnik-mədəni özünəməxsusluğunu qoruyub saxlaması üçün istər hüquqi, istərsə də mənəvi müstəvidə bütün şərtlər təmin edilmiş - əlverişli şərait yaradılmış, tarixiliklə müasirliyin vəhdəti və multikultural dəyərlərin təşəkkülü təmin olunaraq tolerantlıq mühiti qorunmuş və inkişaf etdirilmişdir.

Mədəni irsin və milli-mənəvi dəyərlərin qorunması, xalqımıza məxsus yüksək keyfiyyətlərin dünyada tanıdılması dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə görülən işlər milli-mənəvi dəyərlərimizin qorunmasına, cəmiyyətin mənəvi kamilləşməsinə, zərərli ideoloji təsirlərin qarşısının alınmasına xidmət edir, eyni zamanda, bəşəriyyətin tərəqqisinə, sivilizasiyalararası dialoqun təmin olunmasına yönəlik mütərəqqi ideyaların təbliğinə və təşviqinə istiqamətlənmişdir.

Bu gün xalqımızın mədəni irsinin və milli-mənəvi dəyərlərinin dərindən öyrənilməsi, gələcək nəsillərə çatdırılması istiqamətində aparılan məqsədyönlü siyasət müsbət nəticələr verir. Eyni zamanda, qloballaşma prosesinin geniş vüsət aldığı, xalqların tarixi ənənələri, milli kimliyi və dəyərlərinə qarşı ciddi təhdidlərin meydana çıxdığı hazırkı şəraitdə qarşıda mühüm vəzifələr durur.

**Milli-mənəvi dəyərlərin yaşadılması və mədəni irsin qorunması istiqamətində əsas hədəflər:**

- *xalqımızın tarixi, dili, ədəbiyyatı və mədəniyyətinin hərtərəfli tədqiqi və təbliği;*
- *azərbaycançılıq ideologiyası əsasında milli kimliyin və mədəni müxtəlifliyin qorunması;*
- *əsrlərlə formalaşmış milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin, o cümlədən ailə institutumuzun mənfi təsirlərdən qorunması;*
- *mədəniyyətlərarası dialoq siyasətinin davam etdirilməsi, o cümlədən multikulturalizm və tolerantlığın mənəvi dəyərlərimizin tərkib hissəsi kimi təşviqi.*

## MİLLİ MARAQLARA ƏSASLANAN XARİCİ SİYASƏT, AZƏRBAYCANIN BEYNƏLXALQ MÖVQEYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİ

Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı ilə ölkəmizin müstəqil xarici siyasət kursunun əsasları müəyyənləşdirildi. Beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi, Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı BMT Təhlükəsizlik Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən qətnamələrin qəbul edilməsi, ölkəmizin ərazi bütövlüyünün tanınması, bir çox dövlətlərlə qarşılıqlı maraqlarımızı təmin edən ikitərəfli əlaqələrin qurulması, əməkdaşlığın inkişafı, türk dövlətlərinin həmrəyliyi və birliyi çərçivəsində mühüm addımların atılması və digər amillər bu baxımdan xüsusi qeyd edilməlidir. Ulu Öndərin milli maraqlara əsaslanan xarici siyasət kursu Azərbaycanın dostlarının və müttəfiqlərinin sayının artırılması, beynəlxalq mövqeyinin möhkəmləndirilməsi, Qarabağ məsələsində ölkəmizin haqlı və prinsipial yanaşmasının dəstəklənməsi və digər bu kimi hədəflərə yönəlmişdi. Ulu Öndər bu məqsədlərə nail oldu - Azərbaycan regionun aparıcı dövlətinə çevrildi, etibarlı tərəfdaş kimi tanınaraq beynəlxalq münasibətlər sistemində layiqli yer tutdu.

Azərbaycanın müstəqil xarici siyasəti beynəlxalq hüquq normaları, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, daxili işlərinə müdaxilə edilməməsi və milli maraqların əsas götürülməsi kimi prinsiplər əsasında qurulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik xarici siyasət nəticəsində Azərbaycanın dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli formatda münasibətləri uğurla inkişaf etdirilir. Ölkəmiz müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır, beynəlxalq təşkilatlarla əlaqələrini möhkəmləndirir. Azərbaycanın 155 ölkənin dəstəyi ilə 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, 2019-2023-cü illərdə isə BMT-dən sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına müvəffəqiyyətlə sədrlik etməsi uzaqgörən və məqsədyönlü xarici siyasətin uğurlu nəticələridir. Dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri sayılan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının cari ilin noyabr ayında Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərar beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük etimadın bariz nümunəsidir.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə son qoyulması uzun müddət xarici siyasətin əsas prioritetlərindən birini təşkil etmiş və ötən illər ərzində Azərbaycan dövləti bu istiqamətdə çevik siyasi-diplomatik mübarizə apararaq beynəlxalq birliyin diqqətini bu məsələyə cəlb edə bilmişdir. Bu sahədə atılan addımlar Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasını təmin edən amillərdən biri olmuşdur.

Bu gün Azərbaycanın xarici siyasətinin əsas prioriteti Türk dünyasında ikitərəfli və çoxşaxəli əlaqələri inkişaf etdirərək işbirliyini dərinləşdirmək, Türk Dövlətləri Təşkilatını daha da gücləndirməkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk dünyasında əməkdaşlığın genişləndirilməsinə, Türk Dövlətləri Təşkilatının beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmləndirilməsinə xüsusi önəm verir və bu yöndə uzaqgörən siyasət həyata keçirir, Türk dünyasına vahid ailə kimi yanaşaraq onun tərəqqisinə dəyərli töhfələr verir. Təsadüfi deyil ki, dövlət başçısı cari il fevralın 14-də keçirilən andiçmə mərasimində “Bizim ailəmiz Türk dünyasıdır” ifadəsini işlətmişdir.

2024-cü il iyulun 6-da Şuşada imzalanmış “Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsi” Türk dövlətləri ilə müttəfiqlik və strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, Türk Dövlətləri Təşkilatının dünya miqyasında güc mərkəzinə çevrilməsi istiqamətində məqsədyönlü fəaliyyətin davam etdirilməsi baxımından olduqca mühüm əhəmiyyətə malikdir.

Yeni geosiyasi reallıqlar fonunda Azərbaycanın beynəlxalq mövqeyinin daha da möhkəmləndirilməsi strateji vəzifələrdən biridir.

## Xarici siyasət sahəsində əsas hədəflər:

*- milli maraqlara, beynəlxalq hüquq normalarına, qarşılıqlı anlaşmaya, bərabərhüquqlu tərəfdaşlığa və çoxtərəfli əməkdaşlığa əsaslanan münasibətlərin inkişaf etdirilməsi;*

*- Türk dövlətləri ilə ikitərəfli əlaqələrin və Türk Dövlətləri Təşkilatı çərçivəsində çoxşaxəli əməkdaşlığın daha da gücləndirilməsi;*

*- regionda dayanıqlı sülhə, etibarlı təhlükəsizliyə və çoxtərəfli əməkdaşlığa nail olmaq üçün ardıcıl təşəbbüslər göstərilməsi;*

*- həm regional, həm də qlobal müstəvidə təhlükəsizlik və əməkdaşlığa xidmət edən çoxvektorlu enerji siyasətinin reallaşdırılması, Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərindən və mövcud geostrateji imkanlardan səmərəli istifadə etməklə beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi;*

*- "yaşıl enerji" gündəliyi əsasında iqlim dəyişikliyinə qarşı qlobal mübarizə sahəsində məqsədyönlü fəaliyyət həyata keçirilməsi;*

*- beynəlxalq təşkilatlarda, çoxtərəfli regional əməkdaşlıq platformalarında, o cümlədən BMT, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər önəmli təsisatlarda səmərəli fəaliyyətin və uğurlu təmsilçiliyin davam etdirilməsi, bəşəriyyəti narahat edən qlobal problemlərin aradan qaldırılması üçün beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi;*

*- xarici ölkələrdə yaşayan azərbaycanlıların həmrəyliyinin gücləndirilməsinin diqqət mərkəzində saxlanılması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, islamofobiya və neokolonializm meyillərinə qarşı fəal mübarizə aparılması;*

*- dost ölkələrin siyasi partiyaları ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı faydalı işbirliyinin dərinləşdirilməsi.*

## DEMOKRATİK İNKİŞAF

Ulu Öndər Heydər Əliyevin müstəqil dövlət quruculuğu siyasəti nəticəsində ölkəmizdə "hakimiyyətin mənbəyi xalqdır" prinsipi tam bərqərar olmuş, demokratik institutlar və vətəndaş cəmiyyəti təsisatları yaradılmışdır. Genişmiqyaslı islahatlar nəticəsində vətəndaşların hüquq və azadlıqları təmin olunmuş, ictimai münasibətlər demokratik normalar əsasında inkişaf etmiş, siyasi qüvvələrin dinc şəraitdə və sivil qaydalar əsasında sağlam rəqabəti üçün əlverişli zəmin yaradılmışdır. Azərbaycan əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi, dünyəvi və unitar dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir.

Azərbaycan xalqının hakimiyyətin yeganə mənbəyi olması, seçkili orqanlara seçkilərin ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə keçirilməsi, əsas insan və vətəndaş hüquq və azadlıqlarının qorunması ölkəmizin demokratik siyasi sisteminin əsaslarını təşkil edir.

Demokratik dəyərlərə sədaqət siyasi sistemin inkişafını təmin edən faktorlardan biridir. Plüralizm, insanların azadlığı və bərabərliyi, ictimai rəyin nəzərə alınması, qanunların aliliyinə riayət olunması YAP-ın fəaliyyətinin siyasi əsaslarıdır.

Yeni Azərbaycan Partiyası demokratik ənənələrə mühüm siyasi dəyər kimi yanaşır və onları möhkəmləndirməyi əsas məqsədlərindən biri hesab edir. Partiyanın Proqramında təsbit olunan prinsiplərdən biri demokratik ənənələrin inkişafıdır.

YAP yeni hədəflərdən irəli gələrək öz fəaliyyətində qanunun aliliyi, azadlıq və bərabərlik prinsiplərini əsas götürür, siyasi plüralizmi təşviq edir, siyasi sistemin inkişafına, Azərbaycanın müasir, demokratik və hüquqi dövlət kimi tərəqqisinə layiqli töhfələr verir.

Hər zaman demokratik siyasi mühitin və plüralizmin tərəfdarı olan, siyasi sistemin inkişafı istiqamətində ardıcıl fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası bundan sonra da öz imkanlarından və demokratik mühitin üstünlüklərindən maksimum istifadə etməklə məqsədyönlü fəaliyyətini inamla davam etdirəcək, qarşıda duran milli məqsədləri reallaşdıraraq Azərbaycanın inkişafına layiqli töhfələr verəcək.

### Demokratik inkişaf istiqamətində əsas hədəflər:

*- qanunun aliliyinin təmin edilməsi;*

*- insan və vətəndaş hüquqlarının, söz, fikir və ifadə azadlığının qorunması;*

*- demokratik təsisatların güclənməsinə və vətəndaş cəmiyyətinin inkişafına xidmət edən tədbirlərin davam etdirilməsi;*

*- dövlət orqan və qurumlarında, özəl sektorda şəffaflığın daha da artırılması üçün ictimai institutlara dəstəyin gücləndirilməsi;*

*- demokratik dəyərlərə zidd olan neqativ hallara qarşı mübarizənin sistemli şəkildə davam etdirilməsi;*

*- demokratik inkişaf naminə digər siyasi partiyalarla fəal dialoq və konstruktiv əməkdaşlığın davam və inkişaf etdirilməsi.*

## MÜASİR ÇAĞIRIŞLARA CAVAB VERƏN ÇOXŞAXƏLİ İSLAHATLAR

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın dinamik inkişafını məhz dövrün reallıqlarına adekvat islahatlar həyata keçirməklə təmin etmişdir. Heydər Əliyev tərəfindən irəli sürülmüş müstəqil dövlətin təməl prinsipləri - dövlətçilik, qanunun aliliyi, azərbaycançılıq, varislik və təkamül, konstruktiv əməkdaşlıq və vətəndaş həmrəyliyi, sosial ədalət çoxşaxəli islahatların əsaslarını təşkil etmiş və ölkənin dinamik inkişafını şərtləndirmişdir. Sistemli və davamlı xarakter daşıyan siyasi, hüquqi və sosial-iqtisadi islahatlar Azərbaycanın tərəqqisini və qarşıda duran bir çox milli hədəflərin reallaşmasını mümkün etmişdir.

Heydər Əliyev yolunu uğurla və inamla davam etdirən İlham Əliyev 2018-ci ildə keçirilmiş prezident seçkilərindən sonra andiçmə mərasimində yeni islahat dalğasının anonsunu vermişdi. Qısa müddət ərzində çoxşaxəli institusional və struktur islahatları idarəetmənin səmərəliliyi və çevikliyini təmin etməklə yanaşı, vətəndaş məmnunluğuna, milli həmrəyliyin güclənməsinə, bütövlükdə Azərbaycan dövlətinin milli gücünün artmasına etibarlı zəmin yaratdı.

Ölkə həyatının bütün sahələrində həyata keçirilən islahatların cəmiyyət tərəfindən təqdirlə qarşılanması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin güclü dövlət konsepsiyasının uğurla reallaşdığını təsdiqləyir. Bu, ictimai etimada əsaslanan vətəndaş-dövlət münasibətlərinin inkişafı baxımından da xüsusi önəm daşıyır.

Bu gün uğurla davam etdirilən genişmiqyaslı islahatlar dövlət idarəçiliyinin və siyasi sistemin təkmilləşməsinə, iqtisadiyyatın inkişafına, əhalinin sosial rifahının yaxşılaşmasına, xalqımızın milli mədəni irsinin və mənəvi dəyərlərinin qorunmasına və ümumilikdə Azərbaycanın yüksəlişinə xidmət edir. Hazırda Azərbaycan dünyada islahatçı ölkə kimi tanınır.

Dövlət başçısının strateji kursu islahat və inkişafın vəhdəti ilə səciyyələnir. Azərbaycan dövləti davamlı inkişafı islahatlar yolu ilə təmin edir, dayanıqlı inkişaf isə zamanın çağırışlarına uyğun olaraq yeni islahatlar zərurəti meydana çıxarır. Yeni mərhələdə islahatların dərinləşdirilməsi qarşıda duran əsas vəzifələrdən biridir. Bu islahatlar iqtisadi idarəetmənin köklü səviyyədə müasirləşməsinə, inkişafın yeni hərəkətverici qüvvələrinin təşəkkül tapmasına və hər bir Azərbaycan vətəndaşının rifahının yüksəlməsinə zəmin yaradacaq.

### Azərbaycanın islahatlar yolu ilə inkişafı istiqamətində əsas hədəflər:

*- idarəetmədə çeviklik və effektivliyin artırılması məqsədilə institusional və struktur islahatlarının davam etdirilməsi;*

*- yüksək dövlətçilik şüuruna malik, milli-mənəvi dəyərlərə sadiq, azərbaycançılıq ideologiyasını, müasir bilik və bacarıqları mənimsəmiş intellektual kadrların yetişdirilməsi və idarəetmənin müxtəlif sahələrində irəli çəkilməsi;*

*- siyasi sistemin inkişaf etdirilməsi və yeni siyasi konfiqurasiyanın möhkəmləndirilməsinə yönəlik təşəbbüslərin reallaşdırılması;*

*- dövlətin tənzimləmə funksiyalarının əhatəliliyinin artırılması üçün onların tam rəqəmsallaşdırılması və məmur-vətəndaş təmasının minimuma endirilməsi.*

## DAVAMLI VƏ DAYANIQLI İQTİSADİ İNKİŞAF

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə həyata keçirilən müstəqil dövlət quruculuğunun mühüm prioritetlərindən biri sosial-iqtisadi sabitliyin və iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi olmuşdur. "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir", - deyən Ulu Öndər böhran vəziyyətində olan ölkə iqtisadiyyatının dirçəldilməsi və sosial-iqtisadi yüksəlişə nail olunması üçün məqsədyönlü siyasət həyata keçirmişdir. 1994-cü il sentyabrın 20-də Azərbaycanla dünyanın nüfuzlu neft şirkətləri arasında "Əsrin müqaviləsi"nin imzalanması xalqımızın təbii sərvətləri üzərində həqiqi sahiblik hüququnu təmin etmiş, regional və beynəlxalq əhəmiyyət daşıyan layihələrin həyata keçirilməsinə başlanmışdır. Müstəqil Dövlətlər Birliyi məkanında ilk dəfə Azərbaycanda torpaq islahatlarının və özəlləşdirmə proqramının reallaşdırılması liberal iqtisadi sistemə keçid mərhələsində ölkəmizə mühüm üstünlüklər və uğurlar qazandırmışdır. Bütövlükdə, sistemli tədbirlər nəticəsində Azərbaycan davamlı və dayanıqlı sosial-iqtisadi inkişaf mərhələsinə qədəm qoymuşdur.

Müasir dövrdə müstəqil Azərbaycan dövlət başçısı İlham Əliyevin zəngin siyasi təcrübəsi, möhkəm iradəsi və qətiyyətli liderliyi ilə dinamik inkişaf yolunda irəliləyir. Uğurlu sosial-iqtisadi siyasətin və sistemli islahatların həyata keçirilməsi nəticəsində əsas makroiqtisadi göstərici olan ümumi daxili məhsulun həcmi ildən-ilə artır. Ölkəmiz bir çox postsovet dövlətləri ilə müqayisədə həm ümumi iqtisadi gücünə, həm də milli iqtisadiyyatın kəmiyyət və keyfiyyət göstəricilərinə görə qabaqcıl yerlərdən birini tutur.

Son 30 ildə həyata keçirilən islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı ümumilikdə 4,9 dəfə, o cümlədən sənaye istehsalı 1,9 dəfə, kənd təsərrüfatı istehsalı 2,6 dəfə, yük daşınması 3,1 dəfə, pərakəndə ticarət dövriyyəsi 9,2 dəfə, əsas kapitala yönəldilmiş vəsaitlər 2079,3 dəfə, xarici ticarət dövriyyəsi 34,7 dəfə, dövlət büdcəsinin gəlirləri 3293,1 dəfə, xərcləri isə 2804,5 dəfə artmış, bu illər ərzində ölkədə 190 mindən çox müəssisə yaradılmış, xarici ticarət əlaqələri qurulmuş ölkələrin sayı 60-dan 193-ə yüksəlmiş, Azərbaycan valyuta ehtiyatı olmayan ölkədən 68,5 milyard ABŞ dolları həcmində strateji valyuta ehtiyatına sahib ölkəyə çevrilmiş, 2005-2007-ci illərdə iqtisadi artım üzrə dünyada liderliyini təmin etməklə aşağı gəlirli ölkələr qrupundan yuxarı orta gəlirli ölkələr qrupuna daxil olmuşdur. Bu gün Cənubi Qafqaz iqtisadiyyatının təqribən üçdə iki hissəsini Azərbaycan iqtisadiyyatı təşkil edir. Azərbaycan xaricə 35,1 milyard ABŞ dolları həcmində birbaşa investisiya yönəltməklə dost ölkələrin iqtisadiyyatına sərmayə yatıran ölkə, etibarlı sərmayədar kimi tanınmışdır.

Regionların sosial-iqtisadi inkişafını nəzərdə tutan dövlət proqramlarının uğurla həyata keçirilməsi nəticəsində şəhər və rayonların infrastruktur təminatı yaxşılaşmış, sahibkarlığın inkişafında mühüm irəliləyiş əldə edilmiş, son 20 ildə qeyri neft-qaz sektorunda ümumi daxili məhsul istehsalı real ifadədə 3,5 dəfə artmış, əhalinin məşğulluq səviyyəsi yüksəlmişdir. Əlverişli biznes mühitinin yaradılması Azərbaycana xarici investisiya qoyuluşunu sürətləndirmişdir.

Azərbaycanda sosial-iqtisadi islahatların ardıcıl olaraq həyata keçirilməsi dünyanın əksər nüfuzlu iqtisadi-maliyyə mərkəzlərinin hesabatlarında da öz əksini tapmışdır.

Əldə edilmiş nailiyyətlərlə yanaşı, qarşıda mühüm vəzifələr durur.

### İqtisadi inkişaf sahəsində əsas hədəflər:

*- iqtisadiyyatın şaxələndirilməsi, xarici təsirlərə dayanıqlılığının gücləndirilməsi, valyuta ehtiyatlarının və adambaşına düşən milli gəlirin artım dinamikasının, maliyyə sabitliyinin qorunması;*

*- iqtisadi idarəetmənin müasirləşdirilməsi, daha sağlam rəqabətə əsaslanan sahibkarlıq mühitinin inkişaf etdirilməsi, yüksək biliktutumlu və müqayisəli üstünlüyə malik sahələr üzrə dəyər zəncirinin artımının stimullaşdırılması;*

*- müasir infrastruktur quruculuğunun sürətləndirilməsi, ölkənin tranzit-logistika potensialının genişləndirilməsi, beynəlxalq nəqliyyat layihələrində fəal iştirakının davam etdirilməsi;*

*- rəqabətqabiliyyətli yerli istehsalın artırılması və ixracın stimullaşdırılması;*

*- kənd təsərrüfatının ənənəvi sahələrinin inkişaf etdirilməsi, ərzaq və qida təhlükəsizliyinin təmin olunması;*

*- regionların sosial-iqtisadi inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi;*

*- ekoloji təmiz iqtisadi fəaliyyətin təşviqi və “yaşıl enerji” məkanının yaradılması istiqamətində əlavə tədbirlərin həyata keçirilməsi;*

*- insan kapitalının inkişafı üzrə tədbirlərin davam etdirilməsi.*

## ƏHALİNİN RİFAHININ YÜKSƏLDİLMƏSİ

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu milli inkişaf siyasətinin başlıca istiqamətlərindən biri insan amilinə və vətəndaş rifahına əsaslanan sosial siyasətin həyata keçirilməsidir. “Sosialyönümlü bazar iqtisadiyyatı bizim iqtisadiyyatımızın əsas prinsipi olmalıdır”, - deyən Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyasında Azərbaycan vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit edildi.

Xüsusilə, sosial cəhətdən həssas qruplar, o cümlədən şəhid ailələri, müharibə iştirakçıları və əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlər dövlətin hərtərəfli qayğısı ilə əhatə olundu. MDB məkanında ilk dəfə Azərbaycanda yeni sosial-iqtisadi münasibətlər dövrünə uyğun Əmək Məcəlləsi, Demoqrafik İnkişaf Konsepsiyası, məşğulluq, əmək miqrasiyası və digər sahələrlə bağlı qanunlar qəbul olundu, pensiya təminatı sisteminin qabaqcıl beynəlxalq təcrübə əsasında yenidən qurularaq təkmilləşdirilməsi üçün islahatlara başlandı.

Bu gün Azərbaycan dövlətinin sosial siyasət sahəsində başlıca məqsədi insana qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması və sosial ədalət prinsipinin daim qorunmasıdır. Dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının rifahı və mənafeyi dayanır” fikri həyata keçirilən sosialyönümlü siyasətin əsasını təşkil edir.

Yeni Azərbaycan Partiyasının Proqramında sosial ədalət və insan amili prinsipi təsbit olunmuşdur.

Sosial siyasət sahəsində görülən işlər vətəndaşların layiqli həyat şəraitinin təmin olunması və sosial rifahının yaxşılaşmasında öz əksini tapmışdır. Son 30 ildə real ifadədə əhalinin gəlirləri 5,6 dəfə, orta aylıq nominal əməkhaqqı 4,7 dəfə, minimum aylıq əməkhaqqı 4,2 dəfə artmış, işsizliyin səviyyəsi 1999-cu ildəki 12,7 faizdən 5,5 faizədək, yoxsulluq səviyyəsi 2001-ci ildəki 49,0 faizdən 5,2 faizədək enmişdir. Təkcə son 5 ildə 4 milyon vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunmuş, minimum pensiya məbləği 2,5 dəfə, orta pensiya məbləği 2,0 dəfə, sosial müavinət və təqaüd ödənişləri 5 dəfəyə yaxın artmışdır. Bugünədək şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 14,9 min mənzil və fərdi ev, 7700 avtomobil verilmişdir.

Sosial siyasət sahəsində islahatlar davamlı xarakter daşıyır və əhalinin rifahının daha da yaxşılaşması istiqamətində ardıcıl tədbirlərin reallaşdırılması nəzərdə tutulmuşdur.

### Sosial siyasət sahəsində əsas hədəflər:

*- əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial xidmətlərin əhatə dairəsinin genişləndirilməsi və xidmətlərə əlçatanlığın təmin edilməsi;*

*- həssas qruplara, o cümlədən aztəminatlı ailələrə, əlilliyi olan şəxslərə, müharibə iştirakçılarına və şəhid ailələrinə hərtərəfli dövlət qayğısının davam etdirilməsi;*

*- fəal məşğulluq tədbirlərinin həyata keçirilməsi, yeni istehsal sahələrinin yaradılması və iş yerlərinin sayının artırılması;*

*- əməkhaqqı, pensiya və müavinətlərin artırılması siyasətinin davam etdirilməsi;*

*- sosial infrastruktur quruculuğunun diqqət mərkəzində saxlanılması;*

*- özünüməşğulluq proqramının genişləndirilməsinə dəstək göstərilməsi.*

## MÜASİR ORDU QURUCULUĞU

Müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin təşəkkül tapması və nizami ordu quruculuğu prosesi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. “Ordu ölkəmizin, millətimizin, dövlətimizin, müstəqilliyimizin dayağıdır”, - deyən Ulu Öndər hələ Naxçıvana rəhbərliyi dövründə muxtar respublikanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə xüsusi önəm vermiş, ölkədə siyasi hakimiyyətə qayıdışından sonra ordu quruculuğunu dövlət siyasətinin mühüm prioritetlərindən biri kimi müəyyənləşdirmişdir. Onun rəhbərliyi ilə vahid komandanlıq təmin olunmaqla bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilmiş, əldə edilmiş atəşkəsdən istifadə olunmaqla Azərbaycan Silahlı Qüvvələrinin qüdrətinin artırılması istiqamətində mühüm addımlar atılmış və bugünkü Zəfər Ordusunun təməlləri yaradılmışdır.

Milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi silahlı qüvvələrin maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Bu sahədə görülən işlərin nəticəsidir ki, Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Hazırda Azərbaycan Silahlı Qüvvələri dünyanın ən qüdrətli orduları sırasındadır və ölkəmiz inkişaf etmiş müdafiə sənayesinə malikdir.

Öz gücünü 44 günlük Vətən müharibəsində və 2023-cü ildə həyata keçirilmiş bir günlük antiterror əməliyyatında, döyüş meydanında göstərmiş Azərbaycanın Silahlı Qüvvələri hazırda ən şərəfli dövrünü yaşayır, güclü maddi-texniki bazaya, zabit-əsgər heyəti yüksək peşəkarlıq və hərbi hazırlığa, vətənpərvərlik əhval-ruhiyyəsinə malikdir. Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizin azad edilməsi ilə bütün dünyaya sübut olundu ki, ölkəmiz müasir tələblərə tam cavab verən, yüksək mənəvi-psixoloji hazırlıqlı, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Silahlı Qüvvələrə sahibdir.

Bu gün dünyanın aparıcı hərbi məktəblərində Azərbaycan təcrübəsinin geniş tədqiq və tədris olunması ölkəmizin hərbi-siyasi qüdrətinin ifadəsidir.

### Müasir ordu quruculuğu sahəsində əsas hədəflər:

*- mövcud və proqnozlaşdırılan təhlükə və təhdidlərin xarakteri və miqyası nəzərə alınmaqla ölkənin müdafiə qabiliyyətinin daha da yüksəldilməsi;*

*- milli müdafiə sənayesinin inkişaf etdirilməsi, ordunun hərbi-texniki təchizatının daxili istehsal hesabına daha da yaxşılaşdırılması;*

*- beynəlxalq müstəvidə, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində hərbi-texniki əməkdaşlığın və müdafiə sənayesi sahəsində birgə fəaliyyətin davam etdirilməsi;*

*- silahlı qüvvələrdə mənəvi-psixoloji hazırlıq işlərinin davam etdirilməsi;*

*- hərbçilərin sosial müdafiəsinin və təminatının daha da gücləndirilməsi;*

*- hərbi qulluqçuların xidmət şəraitinin müasirləşdirilməsi;*

*- gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi.*

## GƏNCLƏR SİYASƏTİNDƏ YENİ VƏZİFƏ VƏ HƏDƏFLƏR

Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyi naminə müstəsna xidmətlərindən biri tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına və zamanın çağırışlarına uyğun gənclər siyasətinin əsasının qoyulmasıdır. Gəncləri Azərbaycanın bu günü, sabahı və ümidi adlandıran Heydər Əliyev hər zaman milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər, sağlam gəncliyin yetişməsinə xüsusi diqqət yetirmiş, bu istiqamətdə ardıcıl və məqsədyönlü siyasət həyata keçirmişdir.

Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması, 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi və digər addımlar müdrik dövlət xadiminin gəncliyin inkişafına xüsusi diqqət və qayğısının bariz nümunəsidir. Heydər Əliyevin "Dövlət gənclər siyasəti haqqında" 1999-cu il 29 iyul tarixli Fərmanı da respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün imkanların genişləndirilməsi baxımından böyük önəm daşımışdır. Bütövlükdə, Ulu Öndər gənclər siyasəti sahəsində önəmli qərarlar qəbul etməklə, mühüm fərman və sərəncamlar imzalamaqla bugünkü - müasir, qüdrətli və qalib Azərbaycanın sağlam bünövrəsini yaratmışdır.

Bu gün gənclər siyasəti Azərbaycanda dövlət siyasətinin mühüm prioritetlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gəncliyin inkişafına xüsusi diqqət göstərməklə Azərbaycanın gələcəyini inşa edir. Bu siyasət mütərəqqi düşüncəli, intellektual, möhkəm əqidəli və zəngin mənəviyyatlı Azərbaycan gəncliyinin formalaşması və inkişafına hədəflənmişdir.

Azərbaycan gəncliyinin fiziki və mənəvi inkişafı istiqamətində sistemli fəaliyyət həyata keçirilir. Bu sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsi, Dövlət proqramlarının uğurla icra olunması, kadr islahatları çərçivəsində gənclərə yüksək etimad göstərilməsi və digər addımlar cəmiyyətin ən dinamik təbəqəsi olan gənclərin inkişafı, onların həm cəmiyyət həyatının müxtəlif sahələrində fəal iştirakı, həm də ölkəni beynəlxalq müstəvidə layiqincə təmsil etməsi baxımından müstəsna əhəmiyyətə malikdir.

Gənc nəslin xalqımıza məxsus zəngin milli-mənəvi dəyərlər əsasında - yüksək vətənpərvərlik ruhunda yetişdirilməsi istiqamətində də uğurlu dövlət siyasəti həyata keçirilir. Təqdirəlayiqdir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə yetişən qürurlu, şərəfli və vətənpərvər Azərbaycan gəncliyi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda böyük fədakarlıq və rəşadət nümayiş etdirməklə döyüş meydanında tarix yazmış - Azərbaycan dövlətinin ərazi bütövlüyü və suverenliyinin təmin olunmasında misilsiz rol oynamışdır.

### Gənclər siyasəti sahəsində əsas hədəflər:

*- xalqımıza məxsus tarixi ənənələrin gənc nəslə aşılanması, milli-mənəvi dəyərlərə sadiq vətənpərvər gəncliyin yetişdirilməsi istiqamətində məqsədyönlü fəaliyyətin davam etdirilməsi;*

*- Azərbaycan gəncliyinin fiziki və mənəvi inkişafının təmin edilməsi;*

*- gənclərin peşə hazırlığı səviyyəsinin yüksəldilməsi, onların məşğulluğu və karyera quruculuğunun diqqət mərkəzində saxlanılması;*

*- gənclərin cəmiyyətin müxtəlif sahələrində, o cümlədən ictimai-siyasi həyatda rolunun artırılması;*

*- gənclərdə dövlət idarəçiliyi sahəsində əhəmiyyətli bilik, bacarıq və təcrübənin formalaşdırılması;*

*- könüllülər hərəkatına dəstək göstərilməsi;*

*- gənclərin elmi, mədəni, innovativ və yaradıcılıq potensialından səmərəli istifadə edilməsi.*

## ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ EKOLOJİ TARAZLIĞIN TƏMİNİ

Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə keçid dövrünün bütün çətinliklərinə - iqtisadi, sosial, humanitar və digər bir sıra problemlərə baxmayaraq, ekoloji məsələlərin həllini də daim diqqət mərkəzində saxlamış, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın təmin olunması, su ehtiyatlarının, meşələrin bərpası və mühafizəsi, yaşıllıqların salınması ilə bağlı bir çox tədbirlər həyata keçirilmiş, "Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Planı" və "Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram uğurla icra olunmuşdur.

Bu gün Azərbaycanda ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın təmin edilməsi sahəsində məqsədyönlü dövlət siyasəti həyata keçirilir. Bu istiqamətdə qazanılan uğurlar sayəsində ölkəmizin ekoloji təhlükəsizliyi təmin edilir, ətraf mühitə zərərli təsirlərin qarşısını almaq üçün səmərəli mexanizmlər tətbiq olunur. Son 30 ildə ətraf mühitin mühafizəsinə 4,9 milyard manat vəsait xərclənmiş, stasionar mənbələrdən atmosfer havasına atılan çirkləndirici maddələrin miqdarı 10,6 dəfə azalmış, ümumi sahəsi 421,4 min hektar olan 10 milli park yaradılmış, dövlət təbiət yasaqlıqlarının sahəsi 237,7 min hektardan 350,8 min hektara çatdırılmışdır. Zaqatala Dövlət Təbiət Qoruğunun bazasında Biosfer Qoruğu yaradılmış və Azərbaycanda ilk dəfə olaraq yeni növ beynəlxalq statuslu xüsusi mühafizə rejimli ərazilərin - geoparkların yaradılması və ölkəmizin UNESCO-nun Qlobal Geoparklar Şəbəkəsinə qoşulması nəzərdə tutulmuşdur.

İqtisadiyyatın bütün sahələrinin inkişafı prosesində ətraf mühitin mühafizəsi tələbləri ön plana çəkilir. Biomüxtəlifliyin, su hövzələrinin, o cümlədən Xəzər dənizinin ekoloji mühitinin mühafizəsi, xüsusi mühafizə olunan təbiət ərazilərinin infrastrukturunun və ekoturizmin inkişafı, yaşayış məntəqələrində, şəhərətrafı ərazilərdə, magistral avtomobil yollarının kənarlarında yaşıllıq ərazilərinin, meşə ilə örtülü sahələrin miqyasının artırılması, o cümlədən aqromeşə massivlərinin salınması, təbii sərvətlərdən, kənd təsərrüfatına yararlı torpaqlardan səmərəli istifadə edilməsi, bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi xüsusi diqqət mərkəzində saxlanılır. İşğaldan azad olunmuş ərazilərdə - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında, Naxçıvan Muxtar Respublikasında "yaşıl enerji" konsepsiyası əsasında ekoloji təmiz texnologiyaların tətbiqi və ekoloji mühitin yaxşılaşdırılması həm bərpaolunan enerji mənbələrinin artırılması və "yaşıl iqtisadiyyata" keçid, həm də milli genofondun qorunması və əhalinin sağlam gələcəyinin təmin olunması baxımından son dərəcədə əhəmiyyətlidir.

Neft ölkəsi olmasına baxmayaraq, Azərbaycan alternativ enerji mənbələrinin inkişaf etdirilməsi istiqamətində davamlı addımlar atır. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş Milli Prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Bu prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində sistemli fəaliyyət həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması isə bu baxımdan mühüm əhəmiyyətə malikdir. Bütün bu reallıqlar fonunda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərar dövlətimizin müvafiq sahədə fəaliyyətinin yüksək qiymətləndirilməsidir.

**Ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın təmini istiqamətində əsas hədəflər:**

*- iqtisadi inkişafla ekoloji mühit arasında tarazlığın qorunması;*

*- ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və enerji resurslarından səmərəli istifadə olunması;*

*- yeni dayanıqlı enerji mənbələrinə üstünlük verilməsi və "yaşıl enerji"nin dünya bazarlarına nəqli;*

*- iqlim dəyişmələrinin fəsadlarına qarşı fəal mübarizə tədbirlərinin davam etdirilməsi, "yaşıl dünya" naminə təşəbbüslərin reallaşdırılması və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi;*

*- əhalinin ekoloji maarifləndirilməsi işinin genişləndirilməsi.*

## İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRƏ TARİXİ QAYIDIŞ VƏ BÖYÜK QURUCULUQ PROSESİ

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərinin azad olunmasını dövlət siyasətinin bir nömrəli məsələsi - strateji prioriteti kimi müəyyən etmişdir. Ulu Öndərin komandanlığı ilə Azərbaycan Ordusunun hələ 1994-cü il yanvarın 5-dən 6-na keçən gecə həyata keçirdiyi uğurlu əməliyyat nəticəsində Füzuli rayonunun 20 kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edilmiş, soydaşlarımızın doğma yurdlarına - ata-baba torpaqlarına qayıdışı təmin edilmişdir. “Biz öz torpaqlarımızın sahibi olmalıyıq. Sülh yolu ilə məsələləri həll etməliyik. Nəyin bahasına olur-olsun, hansı yolla olur-olsun, Şuşa da, Qarabağ da, bütün işğal olunmuş torpaqlar azad olunacaq - Azərbaycan xalqının iradəsi ilə azad olunacaq, Azərbaycanın qəhrəman oğullarının şücaəti ilə azad olunacaq və Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq!”, - deyən Ulu Öndərin rəhbərliyi ilə bu strateji hədəfə çatmaq üçün məqsədyönlü addımlar atılmış, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda ardıcıl işlər görülmüş və Azərbaycanı böyük Zəfərə aparan yolun əsası qoyulmuşdur.

Bu yolun zirvə nöqtəsi Azərbaycanın möhtəşəm qələbələr qazanaraq öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev uzun müddət işğal altında olan torpaqlarımızın azad edilməsinə nail olmaqla ata vəsiyyətini, Vətənə sədaqət andını, xalqa vədini şərəflə yerinə yetirmişdir. 2020-ci il noyabrın 8-də - Şuşanın işğaldan azad edildiyi gün Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin və Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirələrini yad edən Müzəffər Ali Baş Komandan Azərbaycan xalqına müraciəti zamanı “Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!”, - deyə vurğulamış, Ulu Öndərin ən böyük arzusunu gerçəkləşdirməklə Azərbaycanı Heydər Əliyevin görmək istədiyi kimi qalib, qüdrətli və əzəmətli dövlətə çevirmişdir.

Ermənistanın hərbi təcavüzü nəticəsində öz ata-baba yurdlarından köçkün düşən insanların doğma torpaqlarına layiqli şəkildə qayıdışının təmin edilməsi postmüharibə dövründə qarşıda duran önəmli strateji hədəflərdəndir. İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuşdur. Bu məqsədlə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" qəbul edilmiş və hazırda icra olunmaqdadır. Böyük Qayıdışın zamanında və yüksək səviyyədə həyata keçirilməsi üçün vacib şərtlərdən biri işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirilməsi və müasir infrastrukturun yaradılmasıdır. “Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz”, - deyən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz iqtisadi gücü hesabına, müasir texnologiyalardan istifadə və innovasiyalar tətbiq etməklə genişmiqyaslı bərpa-quruculuq işləri aparır. Ərazilərin minalardan təmizlənməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması, iqtisadi fəaliyyətin bərpası və digər istiqamətlərdə atılan addımlar dayanıqlı məskunlaşmanın və müasir standartlara uyğun yüksək keyfiyyətli həyat şəraitinin təmin olunmasına əlverişli zəmin yaradır. Böyük Qayıdış Proqramı çərçivəsində görülən işlər sosialyönümlü iqtisadiyyatın inkişafı, o cümlədən məşğulluğun artırılması və əhalinin rifahının yüksəldilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir.

İşğaldan azad edilmiş ərazilərdə tarixi, dini və mədəni abidələrin bərpası da Böyük Qayıdış prosesinin önəmli tərkib hissəsidir. Bu, istər Qarabağ və Şərqi Zəngəzurun dirçəlişinə, istərsə də milli yaddaşımızın bərpasına, Azərbaycanın zəngin tarixi ənənələrinin və milli-mənəvi dəyərlərimizin dünyaya təqdim olunmasına böyük töhfədir.

Ötən müddət ərzində işğaldan azad edilmiş ərazilərin bərpasına 14 milyard manatdan çox vəsait yönəldilmiş, mühüm yol-nəqliyyat, enerji təminatı və digər infrastruktur layihələri gerçəkləşdirilmiş, onlarla yaşayış məntəqəsinin təməli qoyulmuş və artıq bir sıra şəhər, kənd və qəsəbələrdə məskunlaşma təmin edilmişdir. Böyük Qayıdış Proqramının icrası çərçivəsində bu günə qədər 8 minə yaxın keçmiş məcburi köçkün Laçın, Füzuli, Şuşa, Xocalı şəhərlərinə və dörd kəndə qayıtmışdır. Bu ilin sonuna qədər 20 min insanın azad edilmiş torpaqlara qayıtması nəzərdə tutulmuşdur. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq 2026-cı ilədək isə 34500 ailənin doğma torpaqlarda layiqli şəkildə yaşayışı təmin ediləcək, həmin ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası istiqamətində mühüm addımlar atılacaqdır.

İşğaldan azad edilmiş ərazilərdə iqtisadi fəaliyyətin təşviqi üçün vergi, gömrük güzəştləri, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, sosial sığorta haqlarının subsidiyalaşdırılması, əmək miqrasiyası kvotasının müəyyən edilməsi və iş icazələrinin verilməsi, sahibkarlara kommunal xidmətlərə görə dövlət büdcəsindən maliyyə yardımı göstərilməsi sahəsində dövlət dəstəyi nəzərdə tutulub.

İşğaldan azad edilmiş ərazilərin məskunlaşdırılması ilə yanaşı, Böyük Qayıdışın önəmli tarixi, siyasi, sosial-iqtisadi, mədəni, humanitar aspektləri də vardır. Böyük Qayıdış, ilk növbədə, tarixi ədalətin bərpasının təzahürüdür. Yüz minlərlə soydaşımızın yurd həsrətinə son qoyulması, onların ata-baba torpaqlarına qayıdışının təmin olunması böyük tarixi və mənəvi-siyasi əhəmiyyətə malik olmaqla ədalətin təntənəsidir. Bununla yanaşı, bu proses öz doğma yurdlarında yenidən məskunlaşan insanların "məcburi köçkün" sindromundan qurtulması, ata-baba torpaqlarında azad yaşayıb-yaratmaları, onların rifah və firavanlığının təmin olunması baxımından mühüm önəm daşıyır. Eyni zamanda, Böyük Qayıdış müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutan Azərbaycanın dünyada imicinin daha da möhkəmləndirilməsinə və geosiyasi statusunun yeni müstəviyə yüksəlməsinə xidmət edəcəkdir. Digər tərəfdən, Qarabağ və Şərqi Zəngəzurun potensialından, xüsusilə də zəngin təbii sərvətlərindən müasir texnologiyalar tətbiq etməklə səmərəli istifadə olunması, modern şəhərsalma konsepsiyasının reallaşdırılması ilə yeni infrastrukturun yaradılması nəinki həmin bölgələrin yüksəlişinə, eyni zamanda, bütövlükdə Azərbaycan iqtisadiyyatının inkişafına xidmət edəcəkdir.

Böyük Qayıdış 30 il ərzində Ermənistanın işğalçı siyasətindən əziyyət çəkən Azərbaycan xalqının ən böyük arzularından idi. Bu gün qürur və iftixarla qeyd edirik ki, Heydər Əliyev yolunun Müzəffər davamçısı İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər nəticəsində soydaşlarımızın arzuları gerçəkliyə çevrilir - Böyük Qayıdış prosesi uğurla reallaşdırılır. Bu proses çoxəsrlik dövlətçilik tariximizin ən parlaq səhifələrindən birinə çevrilməklə daha güclü yeni Azərbaycanın parlaq gələcəyinə töhfə verəcəkdir.

**Böyük Qayıdışla əlaqədar əsas hədəflər:**

*- işğaldan azad olunmuş ərazilərdə yaşayışın bərpası üçün müasir şəhərsalma konsepsiyası əsasında geniş quruculuq işlərinin davam etdirilməsi;*

*- keçmiş məcburi köçkünlərin təhlükəsiz şəraitdə doğma torpaqlarına qayıtmasının və onlara orada layiqli həyat şəraitinin təmin olunması;*

*- regionun iqtisadi potensialından səmərəli istifadə olunması və ölkə iqtisadiyyatına reinteqrasiyasının həyata keçirilməsi;*

*- xalqımızın milli-mədəni irsinin bərpası;*

*- ərazilərdə ekoloji mühitin yaxşılaşdırılması, ekoloji təmiz texnologiyaların tətbiqi ilə ətraf mühitin qorunması;*

*- yaşıl enerji potensialından səmərəli istifadə olunması.*

# YENİ AZƏRBAYCAN PARTİYASININ DEPUTATLIĞA NAMİZƏDLƏRİ



**Əsgərov Ziyafət Abbas oğlu**

1 SAYLI ŞƏRUR-SƏDƏRƏK SEÇKİ DAİRƏSİ



**Novruzov Siyavuş Dünyamalı oğlu**

2 SAYLI ŞƏRUR-KƏNGƏRLİ SEÇKİ DAİRƏSİ



**Babayev Asiman Əli oğlu**

3 SAYLI BABƏK-ŞAHBUZ-KƏNGƏRLİ SEÇKİ DAİRƏSİ



**İbrahimov Eldar Rza oğlu**

4 SAYLI NAXÇIVAN ŞƏHƏR SEÇKİ DAİRƏSİ



**Həmzəyeva Ülviyyə Tapdıq qızı**

5 SAYLI BABƏK-NAXÇIVAN-CULFA SEÇKİ DAİRƏSİ



**Rəhimzadə Vüqar Gəncəli oğlu**

6 SAYLI ORDUBAD-CULFA SEÇKİ DAİRƏSİ



**Qarayev Əhliman Paşa oğlu**

7 SAYLI SƏBAİL SEÇKİ DAİRƏSİ



**Mirzəyeva Həcər Niyazi qızı**

8 SAYLI BİNƏQƏDİ BİRİNCİ SEÇKİ DAİRƏSİ



**Qafarov Kamaləddin Nəsrəddin oğlu**

9 SAYLI BİNƏQƏDİ İKİNCİ SEÇKİ DAİRƏSİ



**Hüseynov Hümbət Rəhim oğlu**

10 SAYLI BİNƏQƏDİ ÜÇÜNCÜ SEÇKİ DAİRƏSİ



**Xasayeva Səbinə Səməd qızı**

11 SAYLI BİNƏQƏDİ-QARADAĞ SEÇKİ DAİRƏSİ



**Piriyeva Pərvanə Əlövsəd qızı**

12 SAYLI XƏZƏR BİRİNCİ SEÇKİ DAİRƏSİ



**Əliyev Cəlahir Mirzəbala oğlu**

13 SAYLI XƏZƏR İKİNCİ SEÇKİ DAİRƏSİ



**Rəsulova Vüsalə Elman qızı**

14 SAYLI XƏZƏR-PİRALLAHI SEÇKİ DAİRƏSİ



**Quliyev Əli Dilən oğlu**

15 SAYLI YASAMAL BİRİNCİ SEÇKİ DAİRƏSİ



**Mirzəyev Həbib Adil oğlu**

16 SAYLI YASAMAL İKİNCİ SEÇKİ DAİRƏSİ



**Məmmədov Zaman Rəşid oğlu**

17 SAYLI YASAMAL ÜÇÜNCÜ SEÇKİ DAİRƏSİ



**Babaşov Nizami Babaş oğlu**

18 SAYLI NƏRİMANOV-NİZAMİ-BİNƏQƏDİ SEÇKİ DAİRƏSİ



**Məmmədov Hikmət Baba oğlu**

19 SAYLI NƏRİMANOV BİRİNCİ SEÇKİ DAİRƏSİ



**Vəliyev Samir Əhməd oğlu**

20 SAYLI NƏRİMANOV İKİNCİ SEÇKİ DAİRƏSİ



**İbrahimqızı Məlahət İbrahim qızı**

21 SAYLI NƏSİMİ-BİNƏQƏDİ SEÇKİ DAİRƏSİ



**Hüseynov Xaliq İsa oğlu**

22 SAYLI NƏSİMİ-YASAMAL SEÇKİ DAİRƏSİ



**Rəhimov Elnur Fidail oğlu**

23 SAYLI NƏSİMİ-SƏBAİL SEÇKİ DAİRƏSİ



**Rüstəmov Ramil Şahsuvar oğlu**

24 SAYLI NİZAMİ BİRİNCİ SEÇKİ DAİRƏSİ



**Əhmədov Əli Cavad oğlu**

25 SAYLI NİZAMİ İKİNCİ SEÇKİ DAİRƏSİ

# YENİ AZƏRBAYCAN PARTİYASININ DEPUTATLIĞA NAMİZƏDLƏRİ



**Hacıyeva Afaq Şirzad qızı**

26 SAYLI SABUNÇU BİRİNCİ SEÇKİ DAİRƏSİ



**Qasımova Səbinə Məmmədağa qızı**

27 SAYLI SABUNÇU İKİNCİ SEÇKİ DAİRƏSİ



**Qurbanov Taleh Mərifət oğlu**

28 SAYLI SABUNÇU ÜÇÜNCÜ SEÇKİ DAİRƏSİ



**Abdullazadə İlahə İntiqam qızı**

29 SAYLI SABUNÇU DÖRDÜNCÜ SEÇKİ DAİRƏSİ



**Fətəliyeva Sevinc Həbib qızı**

30 SAYLI SURAXANI BİRİNCİ SEÇKİ DAİRƏSİ



**Quliyev Etibar Əliağa oğlu**

31 SAYLI SURAXANI İKİNCİ SEÇKİ DAİRƏSİ



**Həsənova Afət Əbil qızı**

32 SAYLI SURAXANI ÜÇÜNCÜ SEÇKİ DAİRƏSİ



**Əliyev Yengibar Sərraf oğlu**

33 SAYLI XƏTAİ BİRİNCİ SEÇKİ DAİRƏSİ



**Zabelin Mixail Yuryeviç**

34 SAYLI XƏTAİ İKİNCİ SEÇKİ DAİRƏSİ



**Vəliyeva Pərvanə Bulut qızı**

35 SAYLI XƏTAİ ÜÇÜNCÜ SEÇKİ DAİRƏSİ



**Hacıyeva Nərminə Aslan qızı**

36 SAYLI XƏTAİ-SURAXANI SEÇKİ DAİRƏSİ



**Hüseynov Aydın Nəsir oğlu**

37 SAYLI QARADAĞ SEÇKİ DAİRƏSİ



**Həmzəyev Naqif Ələşrəf oğlu**

38 SAYLI GƏNCƏ BİRİNCİ SEÇKİ DAİRƏSİ



**Kərimzadə Pərvin Orxan qızı**

39 SAYLI GƏNCƏ İKİNCİ SEÇKİ DAİRƏSİ



**Quliyev Musa İsa oğlu**

40 SAYLI GƏNCƏ ÜÇÜNCÜ SEÇKİ DAİRƏSİ



**Cəfərov Müşfiq Cəfər oğlu**

41 SAYLI GƏNCƏ-SAMUX-GORANBOY SEÇKİ DAİRƏSİ



**Hüseynova Hicran Kamran qızı**

42 SAYLI SUMQAYIT BİRİNCİ SEÇKİ DAİRƏSİ



**Mirkişili Tahir Famil oğlu**

43 SAYLI SUMQAYIT İKİNCİ SEÇKİ DAİRƏSİ



**Vəliyeva Mehriban Hidayət qızı**

44 SAYLI SUMQAYIT ÜÇÜNCÜ SEÇKİ DAİRƏSİ



**Hacıyev Naib İsmixan oğlu**

45 SAYLI SUMQAYIT DÖRDÜNCÜ SEÇKİ DAİRƏSİ



**Akimova Elnarə Seydulla qızı**

46 SAYLI SUMQAYIT BEŞİNCİ SEÇKİ DAİRƏSİ



**Mustafayev Musa Musa oğlu**

47 SAYLI SUMQAYIT-ABŞERON-QARADAĞ SEÇKİ DAİRƏSİ



**Məmmədova Nigar Fikrət qızı**

48 SAYLI ABŞERON BİRİNCİ SEÇKİ DAİRƏSİ



**Xudayev Faiq Allahverdi oğlu**

49 SAYLI ABŞERON İKİNCİ SEÇKİ DAİRƏSİ



**Namazov Ramid Zakir oğlu**

50 SAYLI ABŞERON ÜÇÜNCÜ SEÇKİ DAİRƏSİ

# YENİ AZƏRBAYCAN PARTİYASININ DEPUTATLIĞA NAMİZƏDLƏRİ



**Əsədov Heydər Xanış oğlu**

51 SAYLI ŞİRVAN SEÇKİ DAİRƏSİ



**Məmmədov İlham Kazım oğlu**

52 SAYLI YEVLAX SEÇKİ DAİRƏSİ



**Hüseynli Əli Məhəmməd oğlu**

53 SAYLI YEVLAX-MİNGƏÇEVİR SEÇKİ DAİRƏSİ



**Mirzəzadə Aydın Böyükkişi oğlu**

54 SAYLI MİNGƏÇEVİR SEÇKİ DAİRƏSİ



**Məmmədli Müşfiq Fazil oğlu**

55 SAYLI SİYƏZƏN-QUBA-XIZI SEÇKİ DAİRƏSİ



**Süleymanlı Mahir Tahir oğlu**

56 SAYLI ŞABRAN-XAÇMAZ SEÇKİ DAİRƏSİ



**Vəliyev Ağalar İsrəfil oğlu**

57 SAYLI XAÇMAZ ŞƏHƏR SEÇKİ DAİRƏSİ



**Əskərova Könül Rəcəb qızı**

58 SAYLI XAÇMAZ KƏND SEÇKİ DAİRƏSİ



**Məhərrəmzadə Əlibala Səttar oğlu**

59 SAYLI QUBA SEÇKİ DAİRƏSİ



**Bağırova Fidan Yusifəli qızı**

60 SAYLI QUBA-QUSAR SEÇKİ DAİRƏSİ



**Badamov Azər Camal oğlu**

61 SAYLI QUSAR SEÇKİ DAİRƏSİ



**Kazımova Yadigar Təvəkgül qızı**

62 SAYLI KÜRDƏMİR SEÇKİ DAİRƏSİ



**Aslanov Aqil Rahil oğlu**

63 SAYLI HACIQABUL-KÜRDƏMİR SEÇKİ DAİRƏSİ



**Qurbanov Sadiq Haqverdi oğlu**

64 SAYLI SALYAN SEÇKİ DAİRƏSİ



**Ağayev Emin Zülfüqar oğlu**

65 SAYLI SALYAN-BİLƏSUVAR-NEFTÇALA SEÇKİ DAİRƏSİ



**Ələkbərov Əziz Yusif oğlu**

66 SAYLI SAATLI SEÇKİ DAİRƏSİ



**Əmiraslanov Əhliman Tapdıq oğlu**

67 SAYLI SABİRABAD SEÇKİ DAİRƏSİ



**Cəfərov Kamal Xaqani oğlu**

68 SAYLI SABİRABAD-ŞİRVAN SEÇKİ DAİRƏSİ



**Əliyev Elməddin Saməddin oğlu**

69 SAYLI BİLƏSUVAR SEÇKİ DAİRƏSİ



**Baxışov Fərhad Ceyhun oğlu**

70 SAYLI NEFTÇALA SEÇKİ DAİRƏSİ



**Həsənov Malik Əvəz oğlu**

71 SAYLI CƏLİLABAD ŞƏHƏR SEÇKİ DAİRƏSİ



**Nəsirov Elman Xudam oğlu**

72 SAYLI CƏLİLABAD KƏND SEÇKİ DAİRƏSİ



**Əliyeva Aytən Ədalət qızı**

73 SAYLI MASALLI-CƏLİLABAD SEÇKİ DAİRƏSİ



**Məmmədov Məşhur Şahbaz oğlu**

74 SAYLI MASALLI SEÇKİ DAİRƏSİ



**Əliyev Sərvər Məlikməmməd oğlu**

75 SAYLI YARDIMLI-MASALLI SEÇKİ DAİRƏSİ

# YENİ AZƏRBAYCAN PARTİYASININ DEPUTATLIĞA NAMİZƏDLƏRİ



**Qurbanlı Mübariz Qəhrəman oğlu**
101 SAYLI SAMUX-ŞƏMKİR SEÇKİ DAİRƏSİ



**Qafarova Sahibə Əli qızı**
102 SAYLI ŞƏMKİR ŞƏHƏR SEÇKİ DAİRƏSİ



**Həsənov Nurlan Urfan oğlu**
103 SAYLI ŞƏMKİR KƏND SEÇKİ DAİRƏSİ



**Hüseynova Sevinc Əmirəhməd qızı**
104 SAYLI GƏDƏBƏY SEÇKİ DAİRƏSİ



**Hüseynov İlkin Abbas oğlu**
105 SAYLI TOVUZ-GƏDƏBƏY SEÇKİ DAİRƏSİ



**Səfərov Nizami Abdulla oğlu**
106 SAYLI TOVUZ SEÇKİ DAİRƏSİ



**Aslanova Humay Tofiq qızı**
107 SAYLI TOVUZ-QAZAX-AĞSTAFA SEÇKİ DAİRƏSİ



**Kərimov Gülgün Kərim oğlu**
108 SAYLI AĞSTAFA SEÇKİ DAİRƏSİ



**Seyidov Səməd İsmayıl oğlu**
109 SAYLI QAZAX SEÇKİ DAİRƏSİ



**Məhəməliyev Nəsib Məhəmməd oğlu**
110 SAYLI BALAKƏN SEÇKİ DAİRƏSİ



**Mahmudova Vüsalə Yusif qızı**
111 SAYLI ZAQATALA-BALAKƏN SEÇKİ DAİRƏSİ



**Əsgərov Asif Yunis oğlu**
112 SAYLI ZAQATALA SEÇKİ DAİRƏSİ



**Sayadov Mithad Bəhərçi oğlu**
113 SAYLI QAX-ŞƏKİ SEÇKİ DAİRƏSİ



**İskəndərov Vüqar Yapon oğlu**
114 SAYLI ŞƏKİ ŞƏHƏR SEÇKİ DAİRƏSİ



**Yusibov Niymət Yusif oğlu**
115 SAYLI ŞƏKİ KƏND SEÇKİ DAİRƏSİ



**Əliyeva Ədilə Əli qızı**
116 SAYLI QƏBƏLƏ SEÇKİ DAİRƏSİ



**Qurbanov Eyvaz Daşdəmir oğlu**
117 SAYLI OĞUZ-QƏBƏLƏ-ŞƏKİ SEÇKİ DAİRƏSİ



**Məmmədov Elman Camal oğlu**
118 SAYLI AĞDAM-XOCALI SEÇKİ DAİRƏSİ



**Məmmədov İbrahim Raqif oğlu**
119 SAYLI AĞDAM SEÇKİ DAİRƏSİ



**Məmmədov Ceyhun Valeh oğlu**
120 SAYLI CƏBRAYIL-QUBADLI SEÇKİ DAİRƏSİ



**Muradov Rövşən Şahbaz oğlu**
121 SAYLI LAÇIN SEÇKİ DAİRƏSİ



**Məmmədov Aqil Kamran oğlu**
122 SAYLI XANKƏNDİ SEÇKİ DAİRƏSİ



**Əhmədova Aidə Ələsgər qızı**
123 SAYLI KƏLBƏCƏR SEÇKİ DAİRƏSİ



**Babışova Leyla Adil qızı**
124 SAYLI ŞUŞA-AĞDAM-XOCAVƏND SEÇKİ DAİRƏSİ



**İsmayılov İmamverdi İbiş oğlu**
125 SAYLI ZƏNGİLAN-QUBADLI SEÇKİ DAİRƏSİ

YAP

“Narıncı Nəşriyyat Evi” MMC-nin mətbəəsində çap olunub. Sifarişçi: Yeni Azərbaycan Partiyası. Sifariş: 03. Tiraj: 4000. Buraxılış tarixi: 31.07.2024